## Dövlət Statistika Komitəsində Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının Azərbaycan Respublikasındakı Nümayəndələri ilə görüş keçirilmişdir.



Fevralın 23-də Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının (BMTİP) Azərbaycan Respublikasındakı Rezident Nümayəndəsinin səlahiyyətlərini icra edən cənab Ercan Murat, BMTİP-in Rezident Nümayəndəsinin müavini xanım Nato Alxazişvili və BMTİP-in Proqram Şöbəsinin rəhbəri xanım Cəmilə İbrahimova ilə görüşmüşdür.

Görüşün əsas məqsədi "Dövlət statistika sistemində islahatlara dəstək" adlı layihənin müzakirəsi olmuşdur.

Komitə sədri nümayəndələri salamlayaraq, Dövlət Statistika Komitəsi ilə Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının Azərbaycan Respublikasındakı Rezident Nümayəndəliyi arasındakı əməkdaşlıq münasibətlərindən məmnun olduğunu bildirmişdir.



Ercan Murat 2016-cı ilin yanvar ayında Rezident Nümayəndənin səlahiyyətlərini icra etmək üçün BMTİP-in Azərbaycan Respublikasındakı Nümayəndəliyinə təyinat alması barədə məlumat vermiş və Dövlət Statistika Komitəsinin ölkədə çox vacib bir qurum olmasını bildirmişdir. Sonra o, "Dövlət statistika sistemində islahatlara dəstək" adlı layihənin məqsədləri barədə məlumat vermişdir.

Görüş zamanı Tahir Budaqov nümayəndələrə Komitənin fəaliyyəti və gələcəkdə ölkə statistika sisteminin qarşısında duran vəzifələr, statistika sisteminin Avropa standartlarına uyğunlaşdırılması məqsədilə statistika sistemində aparılan təkmilləşdirmə prosesi, son dövrlərdə Komitədə aparılan islahatlar, struktur dəyişikliyi, həmçinin Komitədə yeni yaradılmış Dayanıqlı inkişaf statistikası şöbəsi haqqında məlumat vermişdir.

Müxtəlif sahələrdən əldə edilən statistik göstəricilər əsasında istər ölkə, istərsə də regionlar üzrə insan inkişafı indeksinin və Davamlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi yolunda əldə edilmiş nailiyyətlərin ölçülməsi üçün sosial-iqtisadi göstəricilərin keyfiyyətinin yaxşılaşdırılması məqsədilə "Dövlət statistika sistemində

islahatlara dəstək" adlı layihədə nəzərdə tutulan metodoloji yardımdan istifadə edilməsinin vacibliyi vurğulanmışdır.

Cənab Ercan Murat Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqova səmimi qəbula görə minnətdarlığını bildirmişdir.

